# AZƏRBAYCAN RESPUBLİKASININ
# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ

AZ 1009, Bakı şəhəri,
Salatın Əsgərova küç., 85

Tel.: (+99412) 596 50 34, faks: (+99412) 596 50 33
e-poçt: info@sosial.gov.az

07 yanvar 2022-ci il № 22030000531

**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının sədri**

**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Sizi ad gününüz münasibətilə səmimi qəlbdən təbrik edirəm!

Ulu öndər Heydər Əliyevin formalaşdırdığı siyasi xəttin, inkişaf strategiyasının möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən daha da zənginləşdirilməsi, müasir dövrün reallıqları, inkişaf meyilləri əsasında uğurla davam etdirilməsi ölkəmizi dünyanın aparıcı dövlətləri sırasına qoşmaqdadır. Ölkəmizin hərtərəfli inkişafının sürətləndirilməsinə, bütün sahələrdə mütərəqqi islahatların aparılmasına etibarlı zəmin yaradan möhtərəm Prezidentimiz respublikamızın əlverişli iqtisadi potensialını yüksək dəyərləndirərək qeyri-neft sektorunun dayanıqlı tərəqqisini daim diqqət mərkəzində saxlayır, ümummilli liderimizin bu istiqamətdə müəyyənləşdirdiyi strategiyanın davamlılığını təmin edir.

Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə müstəqil audit sisteminin formalaşdırılması və onun normativ hüquqi bazasının yaradılması qısa zaman kəsiyində maliyyə nəzarətinin bu müstəqil növünün uğurlu inkişafına imkan yaratmışdır. Qürurvericidir ki, ölkəmizdə beynəlxalq audit standartlarının tətbiqinin reallaşdırılması, daxili audit xidmətinin korporativ idarəetmə sisteminin ayrılmaz elementinə çevrilməsi, auditorların fəaliyyətinə effektiv nəzarətin qurulması istiqamətində Siz əlinizdən gələni əsirgəmir, öz fəaliyyətinizlə Azərbaycan dövlətçiliyinə sədaqət, milli təəssübkeşlik, xalqımızın milli mənafelərinin qorunması sahəsində xidmət nümunəsi göstərirsiniz.

Bu gün bütün Azərbaycan, dünya azərbaycanlıları milli qürur və qələbə tarixini yaşayır. Qürurvericidir ki, Prezidentimizin apardığı gərgin siyasi mübarizənin təcəssümü olaraq cəbhədə qazandığımız uğuru siyasi səviyyədə möhkəmləndirə bildik. Müzəffər Ali Baş Komandan İlham Əliyevin misilsiz cəsarəti, Dəmir Yumruq tək birləşən xalqımızın mətin iradəsi, ordumuzun yenilməz rəşadəti və Qarabağın azadlığı uğrunda günbəgün möhkəmlənən həmrəyliyimiz nəticəsində əldə edilən, hamımızın həsrətlə gözlədiyimiz Şanlı Qələbə Azərbaycan dövlətinin bütövlüyü və əbədiliyini təmin edərək, onun parlaq gələcəyi üçün yeni üfüqlər açacaq, işğaldan azad edilmiş torpaqlarımız yenidən qurulacaq, ölkəmiz üçün yeni bir dövr başlanacaqdır.

Sizi bir daha bu gözəl gün münasibətilə təbrik edir, doğma Azərbaycanımızın daha da qüdrətlənməsi və çiçəklənməsi naminə gələcək fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar, möhkəm cansağlığı arzu edirəm.

**Hörmətlə,**

**Nazir** **Sahil Babayev**

Azərbaycan Respublikasının
Auditorlar Palatası
№ 17
10 01 2022ci il